**«Nə? Harada? Nə zaman?»**
**intellektual oyunu keçirilib**

Oktyabrın 14-də Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı və ADA Kitab Mərkəzinin dəstəyi, «Azərbaycan» İntellektual Oyunlar Klubunun təşkilatçılığı ilə 18 oktyabr- Dövlət müstəqilliyi gününə həsr olunmuş «Nə? Harada? Nə zaman?» intellektual oyunu üzrə «Müstəqillik Kuboku» yarışı keçirilib. «Modern Hotel Baku» və Azərbaycan Universitetinin binalarında keçirilən turnirdə 43 komanda qüvvəsini sınayıb. Yarışda Vergilər Nazirliyinin əməkdaşlarının təmsil olunduğu «Azərbaycan» İntellektual Oyunlar Klubu da iştirak edib. Birinci arenada keçirilən turnirdə «Strekoza Qeyzenberqa» komandası qələbə qazanaraq «Müstəqillik Kuboku»nun sahibi olub. Azərbaycan Universitetində keçirilən oyunda isə «Artosfera» komandası qalib olub. Qalib komandalara ADA Kitab Mərkəzinin təqdim etdiyi hədiyyələr, diplom və medallar təqdim edilib.

Qarşıda duran planlar barədə qəzetimizə məlumat verən «Azərbaycan» İntellektual Oyunlar Klubunun üzvləri yarandığı qısa vaxt ərzində uğurlu layihələr həyata keçirdiklərini bildirmişlər. Ötən müdddətdə Azərbaycan Universitetində «Nə? Harada? Nə zaman?» üzrə çempionat təşkil edilmiş, «Diplomat» İntellektual Klubu ilə birgə Gənclik Kuboku keçirilmişdir. Klub respublikanın bütün ali təhsil müəssisələrində iki dildə (Azərbaycan və rus) müntəzəm çempionat təşkil etməyi planlaşdırır.